**Ruslan Abdullayev**
*AMEA İ.Nəsimi adına Dilçilik İnstitutu*
*türk dilləri şöbəsinin böyük elmi işçisi*
*filologiya üzrə fəlsəfə doktoru*
***E-mail:*** dr.ruslanabdulla@gmail.com

# ŞÜKRÜ HALUK AKALIN



*Türkiyənin məşhur türkoloq alimi Şükrü Haluk Akalın 22 yanvar 1956-cı ildə Adanada anadan olub. Anası Necla Adananın Yolgeçen kəndindən, atası Ahmet Recai isə Adananın Yüreğir bölgəsinin Karaahmetli kəndindəndir.*

*İbtidai təhsilini Adanada 1963-1968-ci illər arasında Cəlaləddin Sayhan məktəbində almışdır. Orta məktəbi Seyhan İşıq Liseyində 1968-1972-ci illərində oxumuşdur. Lisey təhsilini isə İstanbulda Fatih Oğlanlar Liseyində 1975-ci ildə başa vurmuşdur. Həmin ildə İstanbul Universiteti Ədəbiyyat Fakültəsi Türk Dili və Ədəbiyyatı Bölümünə qəbul olmuş və buradan 1979-cu ildə məzun olmuşdur. Həmin ilin noyabrında doktorluğa qəbul imtahanını müvəffəqiyyətlə verərək məzun olduğu bölümdə doktorluq araşdırmasına başlamışdır. Doktorantura araşdırmasını davam etdirərkən qısa müddət İstanbul Davutpaşa Liseyində Türk Dili və ədəbiyyatı müəllimi olaraq işləmişdir.*[1]

[1] http://www.kimkimdir.gen.tr/kimkimdir.php?id=3587

*Ölkəni gerçək hədəfə, gerçək xoşbəxtliyə qovuşdurmaq üçün iki orduya ehtiyac vardır: Biri vətənini qurtaran əsgər ordusu, digəri xalqın gələcəyinə yol açan irfan elm, mədəniyyət ordusudur. Məhz bu irfan, elm, mədəniyyət orudusunun yetişməsində Şükrü Haluk Akalının rolu əvəzolunmazdır. O, 1980-ci ilin avqustundan Mədəniyyət Nazirliyinin Ensiklopedik Övliya Çələbi Səyahətnaməsi nəşriyyat evində işə başladı. İstanbul Universiteti Türkiyyat İnstitutunun binasında fəaliyyət göstərən bu nəşriyyat 1981-ci ilin sonlarına qədər işləmişdir. Ofisin bağlanılmasından sonra Çukurova Universiteti İqtisadiyyat və İdarəetmə fakültəsində Türk dilini tədris edən Şükrü Haluk Akalın öz elmini, biliyini tələbələri ilə bölüşməyə başladı. Bir günəş kimi ətrafını aydınladaraq cəhalətə meydan oxumağa başladı. Türkiyədə yeni nəsillərin yetişməsində böyük rol oynadı.*

*1983-ci ilin mart ayında Şükrü Haluk Akalın Çukurova Universitetinin Türk Dili Bölümünə müəllim təyin olundu. 1989-cu ilin avqust ayına qədər Çukurova Universitetinin Fən-Ədəbiyyat, İqtisadiyyat və İdarəetmə, Təhsil fakültələrində Türk Dili dərsini keçdi.*

*1987-ci ildə Saltuk-nâme I (Mətin-İncələməsi) mövzusu ilə Yeni Türk Dili elm istiqamətində doktorluq ünvanını aldı və 1989-cu ildə Çukurova Universiteti Fən-Ədəbiyyat Fakültəsi Türk Dili və Ədəbiyyatı Bölümünə yardımçı dosent olaraq təyin olundu. Hazırlamış olduğu doktorluq dissertasiyası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Qaynaq Əsərlər silsiləsindən 8-ci əsər kimi nəşr edilmişdir. Ümumilikdə üç cilddən ibarət olan "Saltuk-nâme"nin ikinci və üçüncü cildlərinin də nəşrə hazırlanması işi Mədəniyyət Nazirliyi tərəfindən Şükrü Haluk Akalına tapşırılmışdır. O, qısa bir müddət ərzində əsərin ikinci və üçüncü cildini də nəşrə hazırladı və bu cildlər 1989-1990-cı illərdə Mədəniyyət Nazirliyi tərəfindən yayımlandı.*

*1990-cı ildə Yeni Türk Dilbilimi istiqamətində dosentlik elmi adını almışdır. Dosent olduqdan sonra, Türkiyə Türkcəsi ilə bağlı araşdırmaları ilə yanaşı Türk dilinin digər bir sahəsi olan Çağdaş Türk Ləhçələri üzərində də araşdırmalar aparmışdır. Cənub-qərb Türk ləhcələrindən Azərbaycan Türkcəsi və Qaqauz Türkcəsi, Şimal-qərb Türk ləhcələrindən Qırğız Türkcəsi və Qazax Türkcəsi, Şimal-şərq Türk ləhcələrindən Şor Türkcəsi və Teleüt Türkcəsi üzərində araşdırmalar aparmış, bu sahələrdə müxtəlif məqalələr, lüğətlər nəşr etdirmiş və magistr, doktorluq dissertasiyalarına rəhbərlik etmişdir. Türkiyə Cümhuriyyətinin Türkologiyasının inkişafında və eyni zamanda elm, irfan ordusunun yetişməsində böyük əmək sərf etmişdir.*

*1996-cı ildə Türk dili və Türk dilinin ləhcələri ilə əlaqədar müxtəlif məqalələri, tezisləri, kitabları və hazırlamış olduğu professorluq təqdimat dissertasiyası ilə Çukurova Universiteti Fən-Ədəbiyyat Fakültəsi Türk Dili və ədəbiyyatı bölməsində Türk dili professorluğuna yüksəldilmişdir.*

*Son illərdə Türkiyə Türkcəsinin əcnəbi dillərin təsiri altında qalması, xüsusilə informasiya texnologiyasında xarici qaynaqlı terminlərin yayılması Şükrü Haluk Akalını da narahat etməyə başlamışdır. Türk dilinin qayğısına qalmağı özünə bir vəzifə borcu bilən türkoloq Türk dilinin saflığını, təmizliyini qorumaq üçün öz ömrünü şam kimi əridərək başqaların da yolunu aydınlatmağa çalışmışdır. Bunun üçün də o, kompüter terminlərinin türkcələşdirilməsi və kompüterdə Türkcənin səhvsiz istifadə edilməsi məsələlərinin həllinə başlamışdır. Kompüter terminlərinin türkcələşdirilməsi işinin uğur qazanması və nəticə verə bilməsi üçün kompüter mütəxəssislərindən, kompüter proqramçılarından, ingilis dili filoloqlarından və Türk dili mütəxəssislərindən ibarət işçi qrupu yaratmışdır. Rəhbəri olduğu və Türk Dil Qurumunun dəstəklədiyi "Kompüter Terimleri Sözlüğü Layihəsi"nə artıq yekun vurulmuş və Kompüter Terminlərinin Müqayisəli Lüğəti (Bilgisayar Terimleri Karşılıklar Kılavuzu) hazırlanmışdır.*

*Şükrü Haluk Akalın kompüter sahəsindəki araşdırmaları ilə yanaşı internetdə Türkcənin yayılması üçün işlər görmüşdür. 1997-ci ildə Türkologiya Dünyası şəbəkəsini (web site), 1998-ci ildə isə Türkoloji Kommunikasiya Qrupunu yaratmışdır. İnternet məkanında nümayiş olunan ilk türkoloji "Virtual Türkologiya Araşdırmaları jurnalı"nı 1999-cu ildə yayınlamışdır.*

*1995-ci ildə Adanada "Türkologiya Araşdırmaları" seriyalı toplunun nəşrinə başlamışdır. Bu seriyadan bu günə qədər on kitab nəşr olunmuşdur.*

*Şükrü Haluk Akalın 1995-ci ildə Türk Dil Qurumunun həqiqi üzvü, 1998-ci ildə isə Türk Dil Qurumu İcra heyətinə üzv seçilmişdir.*

*Çukurova Universitetində Türk dili, ədəbiyyatı və tarixi ilə bağlı araşdırmaların aparılması məqsədi ilə 1996-cı ildə Türkoloji Araşdırmalar Mərkəzini yaratmış, beş il Türkoloji Araşdırmalar Mərkəzinin müdiri olmuşdur. 1993-cü ildən 2001-ci ilə qədər Çukurova Universitetində Türk Dil Bölümü Başqanlığı vəzifəsini icra etmişdir. 2001-ci ildən isə Türk Dil Qurumu Başqanlığına təyin edilmişdir.*[1]

---

[1] http://www.tdk.org.tr/index.php?option=com_content&view=article&id=87:Prof.-Dr.-Sukru-Haluk-AKALIN%27in-Ozgecmisi-&catid=43:oezgecmiler

*Ankarada yerləşən Türk Mədəniyyətini Araşdırma İnstitutu, Baş Katibi ABŞ-da olan Daimi Beynəlxalq Altayistik Konfransının (Permanent International Altaistic Conference PİAC) üzvüdür. 2002-ci ildə isə Tatarıstan Elmlər Akademiyasının fəxri üzvü seçilmişdir.*[1]

*İyirmi beş il Çukurova Universitetində inzibati-idari və müxtəlif elmi pillələrdə vəzifə icra etdikdən sonra 6 Mart 2006-cı ildə Hacettepe Universiteti Ədəbiyyat Fakültəsi Türk Dili və Ədəbiyyatı Bölümünə təyin edilmişdir. 12 Yanvar 2012-ci ilə qədər Türk Dil Qurumu Başqanlığı vəzifəsini icra etmişdir.*

*On bir illik rəhbərliyi dövründə Türk Dil Qurumuna qazandırdığı hörməti həmkarları başda olmaqla elm, sənət və siyasət dünyasının nümayəndələrinin çox adamın haqlı təqdirini qazanmış olan Prof.Dr. Şükrü Haluk Akalının TDK Başqanlığı vəzifəsindən ayrılaraq Hacettepe Universitetindəki əsl vəzifəsinə qayıtdı.*[2]

*Hələ də Hacettepe Universiteti Ədəbiyyat Fakültəsi Türk Dili və ədəbiyyatı bölməsində müəllim və Bölüm Başqanı vəzifəsini icra edir. Kifayət qədər biliyə sahib olmalısan ki, ətrafdakı insanları gərəyindən böyük görməyəsən, lakin uzaqgörənliliyi təmin edəcək qədər da təhsilin olmalıdır ki, onları kiçik görməyəsən. Şükrü Haluk Akalın Hacəttəpə Universitetində bizə "Sözlükçülük" dərsini deyərkən məhz onda bu xüsusiyyəti müşahidə etdim. Tələbələrə yanaşmasında, öz sadəliyi, təvazökarlığı ilə daima bütün tələbələrin sevimli müəllliminə çevrilmişdir.*

*Yrd. Dos. Dr. Gülseren Akalın ilə evlidir, iki uşağı var.*

[1] http://www.akalin.gen.tr/TR,14/oz-gecmisim.html
[2] http://www.kimkimdir.gen.tr/kimkimdir.php?id=3587